**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI**

# QƏRAR
**№ SQ-01/2022-1**

**Naxçıvan şəhəri** **22 fevral 2022-ci il**

## "Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatı haqqında" Əsasnamənin təsdiq olunması barədə

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 20.4-cü, 20.9-cu, 23.3-cü və 23.6-cı maddələrinə və "Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən normativ xarakterli aktların hazırlanması və qəbul edilməsi" Qaydalarına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası

**q ə r a r a a l ı r:**

1.Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 12 fevral 2021-ci il tarixdə keçirilmiş iclasının protokolu təsdiq edilsin.

2. "Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatı haqqında" Əsasnamə təsdiq edilsin.

3. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 23.11.2018-ci il tarixli SQ-01/2018 saylı Qərarı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyi haqqında" Əsasnamə qüvvədən düşmüş hesab edilsin.

4. Qərar 3 gün müddətində Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə göndərilsin.

5. Qərar 24 saat ərzində Mərkəzi Seçki Komissiyasının məlumat lövhəsindən asılmaq yolu ilə dərc edilsin.

6. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr:** **Əjdər Əliyev**

**Katib:** **Əkrəm Hüseynzadə**